

# TORUMA VÜSAL GƏLMƏZ

## üzü payıza bayatı küləyi

*Əli Rza XƏLƏFLİ*

Yaz gələr, bülbül gülər,
Çəmənim gül-gül gülər.
Küsmüsən qönçə gülüm
Barışsan könül gülər.

Yol açıla, gülə bir,
Bülbülə bir, gülə bir.
Könlümə işıq düşə,
Üz sevinə, gülə bir.

Baxıram üzüm gülür,
Ürəyim, gözüm gülür...
Məni oda qaladın,
Yanıram közüm gülür...

Bilirəm ki, bircəsən,
Gəlib burdan keçəsən...
Boynumu burub baxam,
Bir deyəsən necəsən...

Bir baxasan göz dərəm,
Gözlərindən söz dərəm...
Sinəmə od salasan,
Ürəyimdən köz dərəm...

Yaxanı əlim aça,
Könlümün quşu uça...
Söz gələ titrək-titrək,
Dilini dilim aça....

Görməsə o yar məni,
Bu dərdim oyar məni...
Əhdimə xilaf çıxsam,
Qılıncınla yar məni.

Əzəl gündən kür idim,
Araz idim, Kür idim,
Axı birdən nə oldu,
Sən susdun. mən kiridim.

Gəlib salam verməsən,
Bir halımı görməsən...
Dərdimi kimə deyim,
Çiçək bilib dərməsən...

Gümanam, bəlkəlik bil,
Bəlaya bəlgəlik bil...
Bir sevgi Çinarıyam,
Yol üstə kölgəlik bil...

Bu sevgidə öz andım,
Söz kitabım, söz andım...
Hər kəs sevdi yarıdı,
Mən sevdim, dərd qazandım...

Eşqimdən sinəm sarı,
Yaralı sinəm sarı.
Üz tutum, yol yeriyim,
Üzü qibləmə sarı....

Yenə çiçək yağışı,
Gülü ləçək yağışı...
Ruhumuzdan çağlayır,
İçək, keçək yağışı...

Xəyal uçdu gəzə, bax,
Dağa, daşa gəzə bax...
Sinəmin dağlarında
Göz gəzdirib gəzə bax...

Gün keçdi aralıqda,
Dar macal, aralıqda...
Hərə bir yana getdi,
Mən qaldım aralıqda...

Tutqunsan açılsaydın,
Gülsəydi, açılsaydın....
Gül görsə utanardı,
Sən özün açılsaydın...

Yoxum var olub daşsın,
Gül olsun, solub daşsın...
Sənsiz bir çöpə dəymməz,
Bu dünya dolub daşsın...

Özümü buldun mənə,
Ruh olub doldun mənə...
Qaranlığa düşmüşdüm,
Sən işıq oldun mənə...

Ruhumu da özünə çək,
Göy üzündə gəzən mələk
Bir can nədi qıymayam ki,
Canımı da üzən mələk...

Sənin yerin göy üzüdü,
Bir də yerə qayıtma sən...
Dünya sənə neyləyəcək,
Bir də yerə qayıtmasan...

Gül dərdini mən dərəm,
Dərəm, sinəmə sərəm...
Sən güldən də incəsən,
Mən səni incitmərəm...

Sən gül üzlü baharsan,
Hər nə desəm duyarsan.
Üzümü döndərmərəm,
Hara dönsəm sən varsan.

Öpüşlər yağış kimi,
Gülüşlər baxış kimi...
Yazılsın ömrümüzə
Görüşlər naxış kimi...

Yarama duz qoyum mən,
Məlhəmi düz qoyum mən
Örtmə açıq sinəni,
Kəbədi üz qoyum mən...

Gün gəldi üzüm yandı,
Salxımda üzüm yandı.
Yanımdan küskün keçdin,
Baxmadın gözüm yandı...

Bütüm, Tanrım beylə qan,
Beylə düşün, beylə qan...
Yerin, yurdun qibləmdi,
Soruş desin Beyləqan...

Kilid açar sirrini,
Bilən açar sirrini...
Soruşsan sənə deyər,
Könlüm açar sirrini.

Sən üfür közlərimi
Oda bük sözlərimi
Ulduza əvəz bilsən,
Göndərəm gözlərimi.

Günümdən ah küləklər,
Ünümdən ah küləklər...
Sənə salam yetirsin,
Sinəmdən ah küləklər...

Söz dedi... varam, gəldi,
Ahəstə, aram gəldi...
Xoş xəbər aldım səndən,
Könlümə bayram gəldi

Közərir söz ağzımda,
Yanır söz söz ağzımda...
Axı necə yazmayım,
Dad deyir söz ağzımda.

Balıq toram burada,
Yatıb duram burada
Sən gördüyün yuxunu
Mən də görəm burada.

Sinəsi yara gəlməz,
Dərdinə çara gəlməz,
Tor atasan bəxtinə
Vüsal da tora gəlməz.

Borc olam boynunda mən
Uduzam oynunda mən...
İlan kimi qıvrılıb
Yataydım qoynunda mən.

Günəşsən, ay deyilsən,
Dənizsən, çay deyilsən...
Adına and içərəm,
Kimsəyə tay deyilsən...

Dərdin ağlara desəm,
Vüsal çağlara desəm...
Məndən incik düşməzsən
Ahın dağlara desəm...

Könlünə kin düşməsin,
Bəxtin düyün düşməsin...
Kölgəmi hardan salım,
Üzünə gün düşməsin...

Qəlbində pir mən olam,
Açılmaz sirr mən olam...
Açıq kitab olsan da,
Oxuyan bir mən olam...

Bəxt payıma gəlmədin,
Vaxt sayıma gəlmədin...
Muğan, Beyləqan gəldi,
Sən hayıma gəlmədin...

Sinəm sipər gözlədim,
Dizdə təpər gözlədim...
Gözüm yollarda qaldı,
Səndən xəbər gözlədim...

Bir oyan, dön bəri sən,
Yeri gəl, yön bəri sən...
Könlümə işıq düşdü,
Deyəsən yönbərisən...

Ocağam közüm səndə,
Qalıbdı gözüm səndə...
Bilmirəm necə deyim,
Aşiqəm sözüm səndə...

Karvanım yolda qalar,
Ümidim yolda qalar...
Sözünə düz çıxmasan
Gözlərim yolda qalar...

Doğubdur hayıl ayı,
Nə gözəl mayıl ayı...
Ömrümüzə xoş gəlib
Cana gəl, ayıl ayı...

Sevgim, sevincim olsan,
Parlaq bir incim olsan...
Od içindən keçərəm
Mənim güvəncim olsan...

Qanıma qaşıq ol sən,
Ölsəm Yaraşıq ol sən..
Dizimdə hələ güc var,
Yoluma işıq ol sən...

Dolusan, dənsən axı,
Yoluma yönsən axı...
Könlümə işıq göndər,
İşığım sənsən axı...

Ocaq qoru közləyir,
Həsrət məni közləyir...
Pərvazlan, uç gəl bəri,
Ruhum səni gözləyir...

Dillən, sözün üstə gəl,
Güllən gözün üstə gəl..
Məni quraq yandırdı,
Sellən kozün üstə gəl....

Gülüm qönçə budağı,
Açar, bəzər bu dağı...
Bülbülə düşən paydı,
Gülün şehli dodağı...

Həsrətin küləyi var,
Durnadı lələyi var...
Diri gözlü gecəmin
Yuxuna gileyi var...

Gül yanaq, qələmi qaş,
Hardasan ürəyi daş...
Sevgimə yiyə çıxıb,
Olasan bağrı badaş...

Bəxtim sizə gələsi,
Sevinəsi, güləsi...
Sinənin sinisindən,
Yeyəm üzüm giləsi...

Həsrətin bitmir axı,
Yox olub itmir axı...
Baxıram salxımlara,
Əllərim yetmir axı...

Son qaldı, sona qaldı,
Çəkmədin xına qaldı..
Dilindən bir şirin pay
Bəs hansı dona qaldı.

Olmuşam yarıma yan,
Yarım sirr, yarım əyan...
Gəldi səni görməyə
Bəxtindən yarımayan...

Bir gələsən arabir,
Ara yolu, ara bir...
Gör nə var bəxtimizdə,
Kitab açıb ara bir...

Ay doğdu göy üzünə,
Şeh düşdü göy üzünə...
Bu şəhərdən gəl çıxaq,
Üz tutaq köy üzünə...

Sinəmin dərd dağına,
Dərd yağır dərd dağına...
Qoy dağın uca olsun,
Dərd qala dərd dağına...

Üz qoydum dərgahına,
Gün doğa sabahına...
Bir kitablıq sözüm var
Eşqimin Allahına...

Duram səhər mehinə,
Baxam gülün şehinə...
Yol açam, gəl gəl deyəm,
Qəlbimin fatehinə...

Dağlarım qara həsrət,
Bitmədi qara həsrət...
Dodağım dodağına
Əllərim nara həsrət...

Məzə meyə gərəkdir,
Ocaq teyə gərəkdir...
Özümü yandırırsan,
Adım nəyə gərəkdir.

İki salxım üzüm ver.
Gilələri üzüm ver
Üstündə tər damlalar
Sürtüm üstə üzüm ver.

Dər mənə üzüm gətir,
Tər gilə üzüm, gətir...
Üz qoyum sinən üstə
Sevinsin üzüm gətir...

Ürəyim, qəlbim səni,
Oxuyar qəlbim səni...
Sevgimin zirvəsisən,
Bilirəm qəlbim səni...

Çağırar səsin sədan,
Yandırar ərkin ədan...
Pərisən, su pərisi,
Silkindin çıxdın sudan...

Şirinimsən, acımsan,
Könül ehtiyacımsan...
Sən mənim qürur yerim,
Tacidarım, tacımsan...

Saçını hörər gözüm,
Yaxanı dərər gözüm...
Min gözəlin içində
Tək səni görər gözüm...

Gün yetməz ötən günə,
İstəyə yetən günə...
Mən bir qurban kəsərəm
Bu həsrət bitən günə...

Tanrım olsa təkanım,
Üzə gülər imkanım...
Ürəyindən çıxarsan,
Olmaz mənim məkanım.

Balıq torda - çək gəlsin,
Dərdi-qəmi tök gəlsin.
Xəyalıma sevgini,
Çiçək-çiçək ək gəlsin.

Sevgin ilə döyüləm,
Eşqin ilə öyüləm.
Sevinirəm dünyada
Mən hələ tək deyiləm.

Gecə aysan nurlasan,
Gündüz günsən parlasan.
Mən bir yazıq əkinçi,
Sən də quraq tarlasan.

Gəlsin, əlləri öpüm,
Şirin dilləri öpüm.
Bizi kama yetirən
Gözəl illəri öpüm.

Pay olam, kimə düşəm,
Bölünəm, kəmə düşəm.
Hərəyə bircə tikə,
Sənə bir koma düşəm.

Püşk adına düşmədim,
Pay dadına düşmədim.
Səsin, sorağın gəlmir,
Bir yadına düşmədim.

Dərd məni əkdi, getdi,
Bitmədim bükdü getdi.
Doyunca sevinmədim,
Qəm məni çəkdi getdi.

Qonaq gəl şirin elə,
Şəkəri Şirin elə...
Dilindən qənd payı ver,
Acını şirin elə.

İnadın uçuq atdı,
Havayır uçuq atdı.
İstədim deyəm əylən,
Dodağım uçuq atdı.

Ürəyimi sov götür,
Dilə tut tov-tov götür.
Mən canımı borcluyam,
Borcunu bütöv götür.

Sinəmdə yuva qurdum,
Dözdüm, hər dova qurdum.
Ömür keçdi, gün keçdi
Heyif ki, sova qurdum.